# Zülqədər Eli

**I Şah İsmayıl dövrü (1501 – 1524)**

Bu boy, Səfəvi qaynaqlarında səksən min ev olduğu söylənən Maraş və Boz Ox (Yozqat) bölgəsindəki Dülqədir elinin, daha ziyadə Boz Oxda yaşayan oymaqlarından bəzilərinin qollarından meydana gəlmişdir. Şah İsmayılın atası Heydərin ən yaxın müridlərindən Dədə Abdal Bəy bu təşəkküldən idi. Hələ o zaman Şamlu Hüseyin Bəy kimi, "bəy" ünvanını daşıması (daha sonrakı mövqeyinə baxılaraq verilmədi isə) onun əsilzadə zümrəsinə mənsub olduğunu göstərir. Dövlətin qurulmasından sonra Abdal Bəyin qorucu başılığa gətirilmiş olduğunu görürük. Daha sonra Savuc Bulağ və Rey valisi olan Abdal Bəy hicri 915-də (1509-1510) vəzifəsindən çıxarılmış isə də, ertəsi il Özbəklərdən fəth edilən Mərv şəhəri valiliyinə təyin edilmişdir. Hicri 919-cu (1513-1514) ildə Özbəklərin hücumundan sonra Abdal Bəy Mərvi buraxaraq qaçmışdı. Səfəvi hökmdarı Abdal Bəyi, bu xətasından dolayı, qadın paltarı geyindirib bir eşşəyin belində ordugahda dolaşdırmış, hərhalda xanədanın əməkdar bir əmiri olduğu üçün, öldürülməyərək əski mövqeyinə geri qayıtmışdır. Ancaq bu hadisədən sonra Dədə Abdal Bəydən bir daha bəhs edilmir.

Dövlətin quruluşuna qatılan digər bir Dülqədir bəyi də Keçəl Bəy ləqəbi ilə tanınmış olan İlyas Bəy idi. Şah İsmayıl hicri 909-da (1503 = Sıçğan ili) Farsı fəth etdikdə, bu geniş bölgənin valiliyini İlyas Bəyə vermişdi. Fəqət ertəsi il bir səhvi üzündən onu öldürtdüyü kimi, yerinə təyin etdiyi Süleyman Bəyi də eyni aqibətə uğratdı. Bunun üzərinə Şiraz valiliyinə Avşar Mənsur Bəy gətirildi. Mənsur Bəy, Ağqoyunlu Uzun Həsən Bəyin hələ Diyarbəkirdə ikən yaxın əmirlərindən biri olub İranın fəthi üzərinə ona Kuhgiluyə valiliyi verilmişdi. Şah İsmayılın Farsı ələ keçirdiyini görən Mənsur Bəy başına Qızılbaş tacını geyərək dirliyini mühafizə edə bildi. Ancaq Mənsur Bəyin Şiraz valiliyi çox az sürmüş və bura yenə Dülqədirdən Əmət Bəyə (Sarı Şeyxlü obasından) verilmiş və Əmət Bəy bu təyinatdan sonra Xəlil Sultan ləqəbi ilə anılmışdır. Ancaq Çaldıran savaşında boşluq göstərdiyi ittihamı ilə Xəlil Sultan da öldürüləræk yerinə Zülqədərin Çiçəkli obasından Qorucu Başı İzzəddin təyin edildi. Bunun ləqəbi də Əli Sultan idi. Zülqədərlilər Şah Abbasın zamanınadək Fars bölgəsini əllərində tutdular. Öncə vurğulandığı kimi, Diyarbəkirdə öldürülən Dülqədirli Əlaüddövlənin oğlu Şah Ruh Bəyin oğulları Məhəmməd və Əli, İsmayılın yanında olduqları kimi, Dülqədir bəyliyinin 1515-də Şahsuvar Oğlu Əli Bəyə verilməsi üzərinə Dülqədirlilərin bir qismi Şah İsmayılın xidmətinə keçdilər.

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

Zülqədər boyu Təhmasib çağında da ən itaətkar boylardan biri idi. Bu oymağın çoxsaylı qismi yenə Farsda otururdu. Hicri 931-ci (1525) ildə Şiraz valisi Çiçəklü Əli Sultanın ölümü üstünə, yeri yegəni Murad Sultana verildi isə də, sonra bundan vaz keçilib, Şiraz valiliyinə oymağın digər bir obasına mənsub olan Həmzə Sultan təyin edildi. Hicri 939-cu (1532-1533) ildə eyni yerin valiliyinə Xəlil Xanın qardaşı Qazi Xan göndərildi. Onun da hicri 946-da (1539-1540) ölümü üzərinə Hacılar obasından Keçəl Bəyin oğlu İbrahim Sultan adı keçən şəhərin valiliyinə təyin edildi. İbrahim Xan uzun sürə Fars valiliyində bulunduqdan sonra, hicri 962-də (1555) vəzifəsindən çıxarıldı və Astarabad valisi ikən iki il sonra hicri 965-də Türkmən Aba və Özbək Əli Sultan ilə edilən savaşda öldü. İbrahim Xanın Cüneyd Bəy adlı bir qardaşını, Zeynal Bəy və Yaqub adlı oğullarını tanıyırıq. Zeynal Bəy hicri 977-də (1569-1570) Xorasandakı Cam şəhəri valisi idi. Bu obaya mənsub əmirlərdən biri də Mahmud Bəy olub (Qavurğalı obasından), möhrdar idi.Özü hicri 939-cu (1532-1533) ildə balqabağa ox atarkən atdan düşüb ölmüşdü. Bunun (yəni sırığın ucuna bərkidilən qabağa ox atmanın) Türklər arasında yayılmış bir idman olduğunu bilirik. Yenə bu əsnada yaşayan Yol Aldı Ağa (Hacılar obasından), İsmayıl Mirzənin "dədə"si (dini

anlamda) olub, Təhmasib onu İraqeyn Səfərindən öncə elçilik ilə İstanbula göndərmişdi. Zülqədər Ürkməz Sultan, Üləma ilə işbirliyi etdiyi suçlaması ilə hicri 937-ci (1530-1531) ildə öldürülmüşdür. Yenə eyni oymaqdan Qaya Bəyin isə Dülqədir Oğlu Məhəmməd Xan ilə İraqeyn Səfəri əsnasında Osmanlı tərəfinə keçdiyindən əvvəlcə bəhs edilmişdi. Zülqədər boyuna mənsub əmirlərdən biri də Şah Qulu Xəlifə (Qavurğalı obasından) idi. Şah Qulu Xəlifə, Mahmud Sultanın xələfi olaraq hicri 939-dan (1532-1533) bəri möhrdarlıq mövqeyində bulunurdu. O, bu mövqeyi hicri 965-ci (1558) ildə, Türkmən Aba üzərinə edilən yürüş əsnasındakı ölümünədək qoruyub saxlamışdır. Səfvət-üs-səfanı Türkcəyə çevirdən də bu şəxsdir.

İbrahim Xanın çıxarılmasından sonra Fars valiliyi Tatı Oğlu Əli Sultana verildi. Hicri 953-cü (1546) ildə mərkəzdə bulunan Zülqədərlilər ilə Avşarlar arasında ixtilaf çıxmış və bu, silahlı bir qarşıdurmaya qədər getmişdi. Fəqət iki tərəf əmirləri (Zülqədərdən: Möhrdar Şah Qulu Xəlifə, İbrahim Xan və Tatı Oğlu. Avşardan: Qorucu Başı Sevündük Bəy, Şah Qulu Sultan və Mahmud Xan) toplanaraq olayı yatışdırdılar. Əslən Boz Oxlu olan Söklənlər (Sevgülən?), Təhmasib çağında müstəqil bir quruluş kimi vurğulanılır. İraqeyn Səfəri əsnasında Söklən Oğlu Şahverdi Xəlifə qorucu, hicri 967-də (1560) də bayraqdar idi. Yenə Zülqədərin Eymür obasından Şir Hüseyinin hicri 941-də (1534-1535) qorucu olduğu görünür. Zülqədər boyuna mənsub Vəli Sultan hicri 954-də (1547) Urmiyada, Məlkən Oğlu da Xorasanda (967 = 1560) bir yerdə vali bulunurdu. Elçilik ilə Türkiyəyə gedən (hicri 964-də qayıtdı) Təbbət (?) Ağa, hicri 957-ci (1550) ildə Kürdlər ilə edilən bir savaşda ölən Şadi Bəy, ilk öncə qapı ağası, sonra da dövlətin irəli gələnlərindən olan Yol Qulu (ölümü: hicri 975 = 1567-1568), hicri 977-də (1569-1570) Özbəklər ilə edilən bir çarpışmada ölən Səncər Oğlu Həmzə Bəy də bu boydan idilər. Türkman İskəndər Bəyə görə, Təhmasibin ölümü əsnasında Zülqədərə mənsub bu əmirlər vardı: mərkəz əmirlərindən Qavurğalu Astarabad valisi Məhəmməd Qulu Xəlifə (İbrahim Xanın yegəni, Hacılar obasından), Şiraz valisi Qalxançı Oğlu Vəli Sultan, Lar (Fars əyalətindəki) valisi Şah Qulu Xəlifə, İbrahim Xanın oğullarından Xoy valisi Mənsur Bəy.

**II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)**

Bilindiyi kimi, bu oymağın yurdu əskidən bəri Fars bölgəsi id. Bundan başqa, Zülqədər əmirlərindən bəzilərinin də Əcəm İraqında dirliklərə sahib olduqları görünür. Səfəvi dövlətində önəmli bir məmurluq olan möhrdarlıq vəzifəsi çox dəfə bu oymağın əlində bulunurdu. Zülqədərlilər, bəylərbəyiləri Əli Xandan (Şadi Bəylü obasından) məmnun olmadıqlarından, hicri 995-də (1587), yenə Şadi Bəylüdən Mehdi Qulu Bəyin ətrafında toplanaraq Əli Xanı öldürdülər.

**I Şah Abbas dövrü (1587 – 1629)**

Şah Abbasın ölümü əsnasında Zülqədərdən altı əmir vardı. Bu rəqəmlə Zülqədər, Şamludan sonra olmaq üzrə, ikinci sırada yer almaqdadır. Bu boyu başlıca olaraq bu obalar meydana gətirirdi: Qavurğalu, Söklən (?), Şəmsəddinlü, Eymür, Hacılar, Sarı Şeyxlü, Camuslu (?), Çiçəklü.

1. Qavurğalu: Qavurğalu, Zülqədər boyunun ən önəmli obalarından biridir. Bu oba, Türkiyədəki Dülqədir elinə mənsub böyük Qavurğalu boyunun bir qoludur. Qavurğalunun Anadoludakı ana boyu, yenə müxtəlif qollar halında, Maraş, Qədirli və Yeni İldə yaşamaqda idi. İrandakı Qavurğalu bəylərindən Əli Qulu Sultan bulunduğu Qumda Ustaclu Əli Qulu Xanın, Abbasın şah tanınması haqqındakı sözlərinə qulaq asmadığı kimi, Zülqədər bəyləri və sofularının “igid ölər,

adı qalar" kimi öyüdlərini də dinləmədi. Əli Qulu Sultan, Abbas Qəzvində taxta çıxarıldıqdan sonra hüzuruna gəlmiş və hətta möhrdarlıq mənsəbinə nail olmuşdu. Fəqət çox keçmədən Mürşid Qulu Xana qarşı birləşən əmirlər arasında bulunduğundan, yaxalanıb öldürüldü. Abbasın ölümü sırasında adı keçən obadan iki əmir vardı. Bunlardan biri Səraxs valisi İbrahim Sultan, digəri də Möhrdar Şah Qulu Xəlifənin nəvəsi Dərgah Qulu Sultan idi. Dərgah Qulu Sultanın dirliyi Farsda bulunurdu.

2. Söklən: Söklənlərin yurdu Boz-Ox (Yozqat) bölgəsi olub, ana qol orada yaşamaqda idi. Söklənlərin Boz-Oxdakı yurdları Ağdağ yörəsində bulunurdu. Söklənlər adını bəylərinin birindən almışlar. Boy bəyi ailəsindən Söklən Oğlu Musanın 1526-da Boz-Oxda Dülqədir oğullarından Zünnun Oğlu ilə birlikdə təhlükəli bir üsyan çıxardığından öncə bəhs edilmişdi. Söklənlərin İrandakı Zülqədər boyuna sonradan girmiş olmaları gərəkdir. Abbasın çağında Kirman valisi bulunan Rüstəm Sultan (hicri 1012 = 1603-də Osmanlılar tərəfindən dustaq edilmişdi), yenə Abbas çağında Kirman valisi və möhrdar, Şah Səfi çağında qorucubaşı olan oğlu Əmir Xan Söklənə mənsub olduqları kimi, yenə adı keçən hökmdar zamanındakı əmirlərdən Nəzər Əli Bəy ilə Xəndan Qulu Bəy də eyni obadan idilər.
3. Şəmsəddinlü: Zülqədərin bu obası məşğul olduğumuz çağda Qarabağda yaşamaqda və başında Dəli Məhəmməd Sultan bulunmaqda idi. Dəli Məhəmməd daha öncə (hicri 1105 = 1606-1607) Tiflis valisi idi. Bu əmir xoş və güldürücü sözlər söyləyən, hazırcavab və təqlidçi bir şəxsiyyət olduğundan Şah Abbasın ən yaxınları arasında yer almışdı. Hətta Pietro Della Valleyə baxılarsa, "dəli" ləqəbini ona şəxsən Abbas vermişdir. Eyni səyyahın ifadələrindən Dəli Məhəmmədin son illərdə xanlıq mövqeyinə yüksəldiyi anlaşılır. Həkimlərin tövsiyyələrini dinləməyərək pəhrizə riayət etməməsi və içkini buraxmaması, hicri 1029-cu (1620) ildə ölməsinə nədən olmuşdur. Mövqeyi, xan ünvanı ilə qardaşı Səlim Bəyə verildi Səlim Xanı bir ara Ahısqa valiliyində görürük. Bundan başqa, Əli Xan Bəy, Hüseyin Bəy də eyni obaya mənsub idilər.
4. Eymür: Eymürlər, bilindiyi kimi, Oğuz boylarından biridir. Anadoluda Zülqədər elinin böyük boylarından birini də Eymürün bir qolunun təşkil etdiyini bilirik. Eymürlərdən Kəlb-i Əli Sultan oğlu Xəlil Sultan, Abbasın ölümü əsnasında Qarabağda dirlik sahibi idi.
5. Hacılar: Bu oba Boz-Oxdakı Ağcalu oymağına bağlı Hacıların bir qolundan başqası deyildir. Şah Abbas 1586-cı ildə Mürşid Qulu Xana qarşı birləşən əmirlərdən Zülqədər Mehdi Qulu Xanı, adı keçən obadan İbrahim Xan oğlu Yaqub Bəyə öldürtmüş və Fars əyalətini də xanlıq rütbəsi ilə Yaquba vermişdi. Fəqət Yaqub müvazinəsiz bir şəxsiyyət olduğundan, bulunduğu Farsda Şahın əmirlərini dinləməməyə başlamış və çətinliklə uzaqlaşdırıla bilmişdi (hicri 995 = 1592). Abbas Fars bəylərbəyiliyini yenə Dülqədirlidən Bünyad Bəyə verdi. Bu adın Dəmirçülü olması xatirə gəlir. Astarabaddakı Kəbud Came valisi olan Müstədam Sultan da bu obaya mənsub idi.
6. Saru Şeyxlü: Şah İsmayıl çağında Fars əmirül-ümərası Xəlil Sultanın bu obadan olduğunu görmüşdük. Əsl adı Əmət olan Xəlil Sultan, Şah İsmayılın əmri ilə öldürülmüş və buna əbcəd hesabı ilə «hayf ez Xəlil Sultan» tarixi göstərilmişdi.
7. Çiçəklü: Bu obasının Boz-Oxda Boğazlayan yörəsində yaşayan Çiçəklü oymağının bir qolu olduğundan şübhə edilə bilməz. Şah İsmayıl, Xəlil Sultanı öldürtdükdən sonra, Fars əyalətinə bu obanın bəyi İzzəddini təyin etmiş və ona Əli Sultan ləqəbini vermişdi.
8. Camuslu: Əli Sultanın hicri 931-də (1525) ölümü üstünə, Fars əyaləti bu obadan Həmzə Sultana verilmişdi. Yenə eyni obadan Həmzə Bəyin də hicri 998-ci (1590) ildə adı keçməkdədir.
9. Şadi Bəylü: Bu obadan tanıdığımız ilk əmir Şiraz valisi Məhəmməd Xan Ağadır. II Şah İsmayıl bu əmiri vəzifəsindən çıxararaq yerinə Qalxançı Oğlu Vəli Xanı təyin etmişdir. Hicri 995-ci ildə Fars bəylərbəyiliyi Şadi Bəylü Əli Xana verildi. Ancaq Əli Xan, eyni il içində, əqrəbasından Mehdi Qulu Xan tərəfindən öldürüldü. Əli Xanın oğlu Təhmasib Qulu Sultana Darabcird verilərək, Mehdi Qulu Xanın Fars bəylərbəyiliyi tanınmadı.

Anlaşılacağı üzrə, Şah Abbas çağında fəthdən bəri toplu bir halda oturmaqda olan Zülqədər oymağı, digərləri kimi, dağıdılmış və Farsda onlardan ancaq bir bölük qalmışdır. Əmirlərinin məmurluq yerləri

dolayısı ilə Zülqədər obalarından Qavurğaluların bir qismi Səraxs, Söklənlər Kirmanda, Şəmsəddinlü və Eymür Qarabağda, Hacılar Astarabad bölgəsində yaşayırdılar.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**